## «Vergi dostları» şəbəkəsinin ilk üzvlərinə sertifikatlar təqdim edilmişdir

Oktyabrın 4-də Xaçmaz rayonunda yerləşən «Caspian Sea» hotelinin konfrans zalında ilk «vergi dostlarına» sertifikatlar təqdim edilməsi münasibətilə geniş tədbir keçirilmişdir. Tədbiri giriş sözü ilə açan vergilər nazirinin müşaviri Ələkbər Məmmədov bu gün Vergilər Nazirliyinin qarşısında duran əsas məsələlərdən birinin cəmiyyətdə vergi mədəniyyətini formalaşdırmaq, vergi orqanları tərəfindən göstərilən vergi xidmətlərinin ünvanlılığına nail olmaqdan ibarət olduğunu qeyd etmişdir. Vergi məfhumunun hər bir evə, hər bir ailəyə daxil olmasının vergi mədəniyyətini şərtləndirən amillərdən olduğunu bildirən müşavir bu işə cəmiyyətin bütün üzvlərinin cəlb edilməsinin vacibliyini vurğulamış, vergi sahəsində maarifləndirmə və təbliğat işində ictimaiyyətin daha fəal, vergi işini daha yaxşı başa düşən yerli müəllimlərin vergi orqanlarına dəstək verdiklərini bildirmişdir. Azərbaycan Respublikası Təhsil Nazirliyinin dəstəyi ilə Xaçmaz rayonunun 78 ümumtəhsil orta məktəbinin müəllimləri arasından 49 nəfər «vergi dostu» seçilmişdir.

Qeyd olunmuşdur ki, «vergi dostları»nın vəzifəsi yaşadıqları ərazilərdə əhali arasında vergilərə dair məlumatlandırma və təbliğat işləri həyata keçirmək, nazirliyin tətbiq etdiyi elektron xidmətlər barədə vergi ödəyicilərinə informasiyaları çatdırmaqdır. Onlar uşaq və gənclərə vergi anlayışlarını, vergilərin dövlət üçün əhəmiyyətini izah etməli, vergilərə maraq oyatmalı, məktəblilər üçün tərtib edilmiş vergilərə aid dərs vəsaitlərinin tədrisinə kömək göstərməli, ictimai tədbirlərdə, ərazi vergilər idarələrində, vergi ödəyicilərinə xidmət mərkəzlərində, eləcə də ümumtəhsil məktəblərindəki metodiki kabinetlərdə təşkil olunan görüş və treninqlərdə iştirak edərək vergi ödəməyin hər kəsin mənəvi borcu olduğunu ictimayyətin bütün təbəqələrinə aşılamalıdırlar. Bundan başqa, «vergi dostları» gördükləri işlər barədə Ərazi Vergilər İdarəsinə vaxtaşırı məlumat verəcəklər. Nazirlik rəsmisinin sözlərinə görə, gələcəkdə stimullaşdırıcı tədbirlər həyata keçiriləcək, daha fəal «vergi dostları» mükafatlandırılacaq...

Nazirliyin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi Akif Musayev tədbirdə çıxış edərək Azərbaycan iqtisadiyyatının dinamik inkişaf etdiyini və vergilərin iqtisadiyyatın hərəkətverici qüvvəsi olduğunu, təhsil və vergi kimi iki böyük sahənin birləşməsinin müsbət nəticələr verdiyini bildirmişdir. A. Musayev «vergi dostları»nın vergi orqanları tərəfindən bütün lazımi vəsaitlərlə təmin olunacaqlarını, vergilərə dair tədris vəsaitlərinin daha da təkmilləşdirilərək yenidən nəşr edildiyini bildirmişdir. Vergilər Nazirliyi tərəfindən ünvanlı xidmətlərlə bağlı modulların, həmçinin «Ünvanlı vergi xidmətləri» adlı 400 səhifəlik kitabın hazırlandığını və bununla da vergi ödəyicilərinə göstərilən xidmətlərin «vergi dostları»na məcmu halında təqdim edildi tədbir iştirakçılarının nəzərinə çatdırılmışdır.

Tədbirdə çıxış edən Vergi ödəyicilərinə xidmət idarəsinin rəisi Elçin Məmmədov vergi ödəyicilərinə göstərilən xidmətlər, vergilər haqqında nəşrlər, kitablar haqqında məlumat vermişdir. 3 saylı ƏVİ-nin rəisi Vidadi Kərimov və Xaçmaz Rayon Təhsil Şöbəsinin müdiri Mədinə Nurməmmədova yeni layihənin əhəmiyyəti barədə danışmışlar.

Tədbirin sonunda təlimi müvəffəqiyyətlə başa vuran «vergi dostları»na üzvlük sertifikatı, «Vergi dostu»nun yaddaş kitabçası və kompüterlər təqdim olunmuş, onlar əməkdaşlıq barədə öhdəlik vərəqəsini imzalamışlar.

Çimnaz Məmmədova, Qobuqraq kənd ümumi məktəbinin direktoru: «Düşünürəm ki, vergi orqanı olmayan ucqar kənd və qəsəbələrdə, rayonlarda insanların vergilər haqqında maariflənməsi sahəsində «Vergi dostları» layihəsinin böyük faydası olacaq. Bu gün kənd və qəsəbələrdə elektron vergi xidmətləri ilə bağlı əhalinin maariflənməsinə ehtiyac böyükdür. Ucqar kənd və qəsəbələrdə yaşayan sahibkarların elektron xidmətlərdən istifadə etmək bacarığı yüksək olmalıdır. Elektron xidmətlərlə bağlı əhali arasında maarifləndirmə işlərinin aparılması «vergi dostları»nın öhdəliklərinə daxildir. Buna görə də bir «vergi dostu» olaraq, üzərimə düşən öhdəlikləri layiqincə yerinə yetirməyə və mənə göstərilən etimadı doğrultmağa çalışacağam».

Azad Bədəlov, Xaçmaz Şəhər Təhsil Şöbəsinin və 1 saylı məktəbin əməkdaşı: «Kommunikasiyası zəif olan, informasiya texnologiyaları olmayan qəsəbə və kənd sakinlərini vergi sahəsində maarifləndirmək üçün vergi orqanlarına cəmiyyətin bütün üzvləri kömək etməlidir. Hər bir işin, əməlin özəyində təhsil dayandığı üçün bu sahədə təhsil işçilərinin, müəllimlərin də üzərinə məsuliyyət düşür. Çalışacağıq ki, iştirak etdiyimiz bütün tədbirlərdə gələcəyin vergi ödəyicisi olacaq

şagirdlərə, gənclərə vergilər haqqında zəngin biliklər aşılayaq, onların vergilər haqqında anlayışlarının formalaşmasına kömək edək. Hesab edirəm  ki, «Vergi dostları» layihəsinin çox uğurlu nəticələri olacaq».

Arzu İBRAHİMOVA